# KOB SUBYEKTLƏRİNİN BİZNES MÜHİTİNDƏN MƏMNUNLUQ SƏVİYYƏSİNİN ÖLÇÜLMƏSİ

# MÜNDƏRİCAT

01 Sorğu Haqqında Ümumi Məlumat

02 Sorğu Üzrə Respondentlər Haqqında Ümumi Məlumat

03 Sorğunun Nəticələri

04 Çarpaz Testlər

05 Təhlillərə Uyğun Müvafiq Təkliflər

01

# SORĞU HAQQINDA ÜMUMİ MƏLUMAT

# SORĞU HAQQINDA ÜMUMİ MƏLUMAT

**KOBİA**

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

**GMB Klaster Konsaltinq**

Sorğu KOBİA-nın sifarişi əsasında «GMB Klaster Konsaltinq» MMC şirkəti tərəfindən keçirilmişdir.

# SORĞU HAQQINDA ÜMUMİ MƏLUMAT

### SORĞUNUN MƏQSƏDİ

KOB subyektlərinin biznes mühitindən məmnunluq səviyyəsinin ölçülməsi məqsədi ilə keçirilmişdir.

### SORĞUNUN HƏDƏFİ

Sorğunun hədəfi mikro, kiçik və orta sahibkarlıq müəssisələridir.

### KEÇİRİLMƏ METODOLOGİYASI

Sorğuda anket metodu tətbiq edilmişdir.

### RESPONDENTLƏRİN ÜMUMI SAYI

Sorğuda 124 KOB subyekti iştirak etmişdir.

### SORĞUNUN ƏHATƏ ETDİYİ DÖVR

31.10.2025 – 09.12.2025 dövrlərini əhatə edir.

02

# Respondentlər Haqqında Ümumi Məlumat

# 01 Müəssisənin fəaliyyət göstərdiyi iqtisadi rayon (Rəqəmlərlə)



01

# Müəssisənin fəaliyyət göstərdiyi iqtisadi rayon (Faizlərlə)



02

# Hüquqi statusu






# 03 Fəaliyyət sahəsi






## 04 Müəssisəniz neçə ildir fəaliyyət göstərməkdədir?






05

# Müəssisənizdə neçə nəfər işçi çalışır?






06

# Sorğuda iştirak edən






# 07 Sahibkarlıq fəaliyyətində idarəetmə təcrübəniz nə qədərdir?






# 08 Cinsiyyət






09

# Təhsil



Bakalavr
83
Magistratura və ya Doktorantura
40
Tam orta təhsil (11 illik)
1




1%
32%
67%
Tam orta təhsil (11 illik)
Magistratura və ya Doktorantura
Bakalavr

# 03

# Sorğunun Nəticələri

# 01 Azərbaycanda ümumi biznes mühitini necə qiymətləndirirsiniz?






02

# Son 3 ildə biznes mühitində dəyişiklikləri necə dəyərləndirirsiniz?






03

# Dövlət qurumları ilə münasibətlərinizi necə qiymətləndirirsiniz?






04

# Biznesinizin inkişafına ən çox mane olan amillər hansılardır? (bir neçəsini seçə bilərsiniz)

| Ən çox mane olan amillər | Say | Faiz |
|---|---|---|
| Yoxlamaların çoxluğu | 4 | 1,7% |
| Bürokratik prosedurlar | 9 | 3,7% |
| Maliyyə resurslarına çıxışın məhdudluğu | 110 | 45,5% |
| Kommunal xidmətlərin bahalılığı | 35 | 14,5% |
| İnfrastruktur problemləri | 44 | 18,2% |
| Vergi yükü | 40 | 16,5% |

05

## Son 12 ay ərzində biznesinizdə dövlət nəzarəti və yoxlamaları olubmu?






06

# Əgər olubsa, hansı qurumlar tərəfindən? (bir neçəsini seçə bilərsiniz)

| Qurumlar | Say | Faiz |
|---|---|---|
| Vergi orqanları | 29 | 20,7% |
| FHN | 3 | 2,1% |
| Əmək müfəttişliyi | 8 | 5,7% |
| Qida Təhlükəsizliyi Agentliyi | 2 | 1,4% |
| İqtisadiyyat Nazirliyi | 5 | 3,6% |
| Bələdiyyə orqanı | 4 | 2,9% |
| Digər | 89 | 63,6% |

# 07 Yoxlama prosesi zamanı şəffaflıq səviyyəsini necə qiymətləndirirsiniz?






08

# Yoxlamalar zamanı məmur davranışını necə qiymətləndirirsiniz?






09

# Yoxlamaların tezliyini necə qiymətləndirirsiniz?






10

# Yoxlamalarla bağlı əsas problem nədir?

| Əsas problem | Say | Faiz |
|---|---|---|
| Uzun prosedurlar | 70 | 40,7% |
| Əlavə sənədləşmə tələbləri | 62 | 36,0% |
| Qeyri-şəffaf qərarlar | 8 | 4,7% |
| Müxtəlif qurumlar arasında koordinasiyanın olmaması | 10 | 5,8% |
| Digər | 22 | 12,8% |

11

# Yoxlamalar nəticəsində biznesinizə əlavə maliyyə yükü düşüb?



12

# Yoxlamalar biznesinizə mane olurmu?






13

# Biznesiniz üçün aşağıdakı kommunal xidmətlərə çıxış səviyyəsini necə qiymətləndirirsiniz? (1 – çox çətin, 5 – çox asan)

| Elektrik enerjisinə qoşulma | Say | Faiz |
|---|---|---|
| çətin | 2 | 1,6 |
| yetərli | 9 | 7,3 |
| qismən asan | 61 | 49,2 |
| çox asan | 52 | 41,9 |

| Qaz təchizatı | Say | Faiz |
|---|---|---|
| çətin | 5 | 4,0 |
| yetərli | 47 | 37,9 |
| qismən asan | 72 | 58,1 |
| çox asan | 5 | 4,0 |

| Su təchizatı | Say | Faiz |
|---|---|---|
| çətin | 4 | 3,2 |
| yetərli | 47 | 37,9 |
| qismən asan | 73 | 58,9 |
| çox asan | 4 | 3,2 |

| Kanalizasiya sisteminə qoşulma | Say | Faiz |
|---|---|---|
| çətin | 2 | 1,6 |
| yetərli | 6 | 4,8 |
| qismən asan | 43 | 34,7 |
| çox asan | 73 | 58,9 |

| İnternet və telekommunikasiya | Say | Faiz |
|---|---|---|
| çətin | 11 | 8,9 |
| yetərli | 51 | 41,1 |
| qismən asan | 51 | 41,1 |
| çox asan | 11 | 8,9 |

14

# Kommunal xidmətlərin keyfiyyətini necə qiymətləndirirsiniz?

(1–5 arası: 1 = çox pis, 5 = çox yaxşı)

| Elektrik enerjisinə qoşulma | Say | Faiz |
|---|---|---|
| pis | 1 | ,8 |
| orta | 13 | 10,5 |
| yaxşı | 59 | 47,6 |
| çox yaxşı | 51 | 41,1 |

| Qaz təchizatı | Say | Faiz |
|---|---|---|
| pis | 2 | 1,6 |
| orta | 5 | 4,0 |
| yaxşı | 45 | 36,3 |
| çox yaxşı | 72 | 58,1 |

| Su təchizatı | Say | Faiz |
|---|---|---|
| pis | 2 | 1,6 |
| orta | 5 | 4,0 |
| yaxşı | 43 | 34,7 |
| çox yaxşı | 74 | 59,7 |

| Kanalizasiya sisteminə qoşulma | Say | Faiz |
|---|---|---|
| pis | 1 | ,8 |
| orta | 9 | 7,3 |
| yaxşı | 45 | 36,3 |
| çox yaxşı | 69 | 55,6 |

| İnternet və telekommunikasiya | Say | Faiz |
|---|---|---|
| pis | 11 | 8,9 |
| orta | 51 | 41,1 |
| yaxşı | 52 | 41,9 |
| çox yaxşı | 10 | 8,1 |

15

# Kommunal xidmətlərin qiymətləri nə dərəcədə əlverişlidir?






16

# Elektrik enerjisində fasilələr tez-tez olurmu?






17

# Müraciətlərə cavab müddəti

(1–5 arası: 1 = çox gec, 5 = çox operativ)



18

# Müştəri xidmətlərinin səviyyəsi:






# 19 Vergi siyasətinin ədalətliliyini necə qiymətləndirirsiniz?






20

# Bank və maliyyə resurslarına çıxış imkanlarınız:






21

# Dövlətin KOB-lara dəstək proqramlarından xəbərdarsınızmı?






22

# Əgər istifadə etmisinizsə, dəstək proqramlarının effektivliyi:

(1–5 arası: 1 = çox pis, 5 = çox yaxşı)



23

# KOB-ların maraqlarının müdafiəsi mexanizmləri:






24

# Rəqəmsal xidmətlər (e-taxes, e-gov, onlayn icazə sistemləri və s.) səviyyəsindən nə dərəcədə məmnunsunuz?






25

# Rəqəmsal platformalarla işləməkdə əsas çətinlikləriniz nələrdir?

| Əsas problem | Say | Faiz |
|---|---|---|
| Texniki bilik çatışmazlığı | 41 | 14,9% |
| İnternet keyfiyyəti | 109 | 39,6% |
| Sistem xətaları | 118 | 42,9% |
| Uyğun proqramların olmaması | 7 | 2,5% |

26

## Sizcə biznes mühitinin yaxşılaşdırılması üçün əsas prioritet istiqamətlər hansılardır?

| **Əsas prioritet istiqamətlər** | **Say** | **Faiz** |
|---|---|---|
| Vergi və gömrük islahatları | 57 | 15,8% |
| İnzibati prosedurların sadələşdirilməsi | 63 | 17,5% |
| KOB-lar üçün maliyyə dəstəyinin artırılması | 66 | 18,3% |
| Hüquqi müdafiə mexanizmlərinin gücləndirilməsi | 14 | 3,9% |
| Rəqəmsallaşmanın inkişafı və təşviqi | 102 | 28,3% |
| Regionlarda biznes mühitinin inkişafı | 59 | 16,3% |

27

# Biznes mühitinin yaxşılaşdırılması üçün təkliflər:

•**İnzibati prosedurların sadələşdirilməsi**
Lisenziya, icazə, qeydiyyat və razılaşdırma proseslərinin qısaldılması və daha çevik mexanizmlərin tətbiqi.
•**Rəqəmsallaşmanın genişləndirilməsi**
Elektron xidmətlərin sayının artırılması, vahid e-platformaların yaradılması və sistemlərin daha funksional işləməsi.
•**Vergi islahatları və güzəştlər**
Xüsusilə KOB-lar üçün vergi prosedurlarının sadələşdirilməsi, vergi güzəştlərinin və stimulların tətbiqi.
•**Gömrük və idxal-ixrac prosedurlarının yüngülləşdirilməsi**
Ehtiyat hissələrinin, xammalın və texniki avadanlıqların idxalında bürokratik maneələrin azaldılması.
•**KOB-lar üçün maliyyə dəstəyinin artırılması**
Kredit, qrant, subsidiyalar və alternativ maliyyə mənbələrinə çıxış imkanlarının genişləndirilməsi.
•**Regionlarda biznes mühitinin inkişafı**
Regionlarda rəqəmsallaşma, vergi və icarə güzəştləri, investisiya təşviqləri vasitəsilə sahibkarlığın dəstəklənməsi.
•**Turizm və xidmət sektoruna xüsusi dəstək**
Lisenziya və icazələrin sadələşdirilməsi, reklam və tanıtım üçün dövlət dəstəyinin artırılması.
•**Qarabağ bölgəsi üçün xüsusi mexanizmlər**
Tikinti, sənaye, ticarət və xidmət sektorlarında vahid elektron icazə sistemi və sürətli razılaşdırma mexanizmləri.
•**Sənaye və istehsal sahələrinin dəstəklənməsi**
Enerji xərclərinin azaldılması, xammal və resurslara çıxışın yaxşılaşdırılması.
•**İnnovasiya, IT və startap ekosisteminin inkişafı**
Texnoparkların, innovasiya mərkəzlərinin yaradılması və startup-lar üçün vergi-maliyyə stimulları.
•**Yaradıcı və media sektoruna dəstək**
Reklam, media, dizayn və incəsənət sahələrində şəffaf tənzimləmə, dövlət sifarişləri və qrant mexanizmləri.
•**Təhsil və kadr hazırlığının gücləndirilməsi**
Təlim, təcrübə proqramları, ixtisaslı kadr hazırlığının təşviqi üçün vergi və qrant dəstəyi.
•**Hüquqi və institusional şəffaflığın artırılması**
Hüquqi prosedurların sadələşdirilməsi, qanunvericilik məlumatlarının daha əlçatan olması.
•**Maliyyə və audit hesabatlılığının asanlaşdırılması**
Mühasibat, vergi uçotu və audit proseslərinin avtomatlaşdırılması və inzibati yükün azaldılması.
•**Biznes üçün risklərin azaldılması və investor mühitinin yaxşılaşdırılması**
Hüquqi müdafiə mexanizmlərinin gücləndirilməsi, bank faizlərinin optimallaşdırılması və bazar araşdırmalarına dövlət dəstəyi.

28

# Dövlət qurumlarından gözləntiləriniz:

•Lisenziya, icazə, qeydiyyat, yoxlama və sertifikatlaşdırma proseslərinin daha çevik, qısa və şəffaf mexanizmlərlə həyata keçirilməsi.
**•Rəqəmsallaşmanın inkişafı və vahid elektron platformalar**
Xidmət obyektləri, icazələr, müraciətlər, yoxlamalar və hesabatlılıq üçün vahid, funksional və stabil e-platformaların yaradılması.
**•Vergi yükünün azaldılması və güzəşt mexanizmləri**
Xüsusilə KOB-lar üçün vergi dərəcələrinin optimallaşdırılması, güzəştli vergi rejimləri və sadələşdirilmiş hesabatlılıq.
**•KOB-lar üçün maliyyə dəstəyi və alternativ maliyyə alətləri**
Kreditlər, subsidiyalar, qrantlar, alternativ maliyyə mənbələrinə çıxışın artırılması.
**•Təlim, peşə hazırlığı və ixtisasartırma proqramları**
Gənclər, xidmət sektoru və KOB-lar üçün peşə təlimləri, ixtisasartırma və praktiki bacarıqların inkişafı.
**•Regionlarda biznes mühitinin inkişafı**
Regionlarda rəqəmsallaşma, vergi və maliyyə güzəştləri, yerli sahibkarlığın təşviqi.
**•Turizm sektorunun inkişafı və tanıtımı**
Turizm infrastrukturu, beynəlxalq reklam, marşrutların təşviqi və sahibkarlara xüsusi dəstək mexanizmləri.
**•İnnovasiya, IT və texnoloji ekosistemin gücləndirilməsi**
Texnoloji inkubatorlar, startap dəstəyi, IT şirkətləri üçün vergi güzəştləri və qrant proqramları.
**•Logistika, idxal və texniki təminata dəstək**
Texniki avadanlıq, ehtiyat hissələrinin idxalı və logistika proseslərində prosedurların yüngülləşdirilməsi.
**•İnfrastruktur və sənaye sahələrinə dəstək**
Sənaye parkları, sənaye zonaları, infrastrukur layihələri və enerji xərclərinin optimallaşdırılması.
**•Yerli şirkətlərin və mütəxəssislərin təşviqi**
İnfrastruktur və dövlət layihələrində yerli şirkətlərə üstünlük və stimullaşdırıcı mexanizmlər.
**•Yaradıcı, media və reklam sektorunun inkişafı**
Reklam və media sahəsində şəffaf qaydalar, vergi güzəştləri, təlim və innovasiya dəstəyi.
**•Hüquqi şəffaflıq və məlumatlandırma mexanizmləri**
Qanunvericilik və vergi dəyişikliklərinin vaxtında, aydın və izahlı formada biznesə çatdırılması.
**•Dövlət–biznes kommunikasiyasının gücləndirilməsi**
Sahibkarlarla mütəmadi görüşlər, operativ geridönüş mexanizmləri və xidmət mədəniyyətinin gücləndirilməsi.
**•Şəffaflıq, sabitlik və ədalətli tənzimləmə mühiti**
Qaydaların stabil saxlanılması, yoxlamaların optimallaşdırılması, şəffaf tender və audit mexanizmləri.
**•İnzibati prosedurların sadələşdirilməsi və sürətləndirilməsi**

29

# Digər fikirlər və tövsiyələr:

•**Dövlət–özəl sektor əməkdaşlığının gücləndirilməsi**
KOB-ların və xidmət sektorunun dayanıqlı inkişafı üçün institusional əməkdaşlıq mexanizmlərinin genişləndirilməsi.
•**Peşəkar kadr hazırlığı və insan kapitalının inkişafı**
Xidmət, servis, IT, mühasibat, logistika, jurnalistika və mühəndislik sahələrində ixtisaslı kadrların hazırlanması.
•**Təlim, sertifikasiya və davamlı inkişaf proqramları**
KOB-lar, turizm, hüquq, mühasibat və xidmət sektorları üçün sertifikatlaşdırılmış təlimlərin təşviqi.
•**Turizm sektorunun beynəlxalq inteqrasiyası və tanıtımı**
Yerli turizm şirkətlərinin beynəlxalq sərgilərdə iştirakı, tanıtım və marketinq dəstəyi.
•**Regionlarda biznes və ticarət infrastrukturunun inkişafı**
Regionlarda ticarət şəbəkələri, servis infrastrukturu, satış və logistika imkanlarının genişləndirilməsi.
•**Qarabağ regionunun iqtisadi və sosial bərpası**
Qarabağda ticarət, servis, tikinti materialları istehsalı və lokal iqtisadiyyatın dayanıqlı inkişafı.
•**İnnovasiya və ekoloji davamlılıq təşəbbüsləri**
Təkrar emal, ekoloji texnologiyalar, karbon qazının emalı və yaşıl istehsal layihələrinin təşviqi.
•**İnnovativ layihələr və startap ekosisteminin dəstəklənməsi**
Gənclər üçün startap qrantları, innovativ təşəbbüslər və yeni biznes modellərinin inkişafı.
•**İnnovasiya, IT və rəqəmsal transformasiya**
Rəqəmsallaşmanın sürətləndirilməsi, IT mütəxəssislərinin hazırlanması və texnoloji əməkdaşlıqlar.
•**Logistika və bazar imkanlarına çıxışın genişləndirilməsi**
KOB-lar üçün logistika, bazar araşdırması və beynəlxalq bazarlara çıxış imkanlarının artırılması.
•**Vergi, gömrük və maliyyə güzəştləri**
Kiçik servis mərkəzləri və KOB-lar üçün vergi, kredit və maliyyə alətlərinin əlçatanlığının artırılması.
•**Yaradıcı, reklam və media sektorunun inkişafı**
Yerli brendlər, reklam agentlikləri və media qurumları üçün innovasiya, tanıtım və dövlət dəstəyi.
•**Təhsil–biznes əməkdaşlığı və tətbiqi biliklərin artırılması**
Təhsil müəssisələri ilə biznes subyektləri arasında praktiki əməkdaşlıq mexanizmlərinin yaradılması.
•**Hüquqi, institusional və etik mühitin yaxşılaşdırılması**
Şəffaf prosedurlar, korrupsiyaya qarşı mühitin gücləndirilməsi və ədalətli tənzimləmə.
•**Biznes kommunikasiya platformaları və məlumat mübadiləsi**
Biznes forumları, sərgilər, vahid informasiya platformaları və sektorlararası dialoqun genişləndirilməsi.

04

# Çarpaz Testlər

# Müəssisənin İşçi Sayına Görə Çarpaz Testlər

| | | 1. Azərbaycanda ümumi biznes mühitini necə qiymətləndirirsiniz? | | | | |
|---|---|---|---|---|---|---|
| | | Çox əlverişli | Əlverişli | Neytral | Qismən əlverişli | Əlverişsiz |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 0,0% | **77,8%** | 18,1% | 1,4% | 2,8% |
| | 11-50 (Kiçik) | 7,7% | **92,3%** | 0,0% | 0,0% | 0,0% |
| | 51-250 (Orta) | 3,8% | **69,2%** | 23,1% | 3,8% | 0,0% |

| | | 2. Son 3 ildə biznes mühitində dəyişiklikləri necə dəyərləndirirsiniz? | | | | |
|---|---|---|---|---|---|---|
| | | Yaxşılaşma var | Qismən yaxşılaşıb | Neytral | Dəyişiklik yoxdur | Geriləmə var |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 2,8% | 30,6% | **62,5%** | 1,4% | 2,8% |
| | 11-50 (Kiçik) | 30,8% | **61,5%** | 7,7% | 0,0% | 0,0% |
| | 51-250 (Orta) | 7,7% | **53,8%** | 34,6% | 0,0% | 3,8% |

| | | 3. Dövlət qurumları ilə münasibətlərinizi necə qiymətləndirirsiniz? | | | | |
|---|---|---|---|---|---|---|
| | | Çox müsbət | Qismən müsbət | Neytral | Qismən mənfi | Çox mənfi |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 6,9% | **73,6%** | 16,7% | 0,0% | 2,8% |
| | 11-50 (Kiçik) | 6,9% | **73,6%** | 16,7% | 0,0% | 2,8% |
| | 51-250 (Orta) | 0,0% | **65,4%** | 30,8% | 3,8% | 0,0% |

| | | 4. Biznesinizin inkişafına ən çox mane olan amillər hansılardır? (bir neçəsini seçə bilərsiniz) | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Yoxlamaların çoxluğu | Bürokratik prosedurlar | Maliyyə resurslarına çıxışın məhdudluğu | Kommunal xidmətlərin bahalılığı | İnfrastruktur problemləri | Vergi yükü |
| Müəssisəniz də neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 0,0% | 0,0% | **94,4%** | 23,6% | 31,9% | 25,0% |
| | 11-50 (Kiçik) | 0,0% | 0,0% | **92,3%** | 42,3% | 11,5% | 46,2% |
| | 51-250 (Orta) | 15,4% | 34,6% | **69,2%** | 26,9% | **69,2%** | 38,5% |

| | | 6. Əgər olubsa, hansı qurumlar tərəfindən? (bir neçəsini seçə bilərsiniz) | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Vergi orqanları | FHN | Əmək müfəttişliyi | Qida Təhlükəsizliyi Agentliyi | İqtisadiyyat Nazirliyi | Bələdiyyə orqanı | Digər |
| Müəssisən izdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro ) | 5,6% | 2,8% | 0,0% | 0,0% | 0,0% | 1,4% | **95,8%** |
| | 11-50 (Kiçik) | 38,5% | 0,0% | 0,0% | 0,0% | 0,0% | 0,0% | **61,5%** |
| | 51-250 (Orta) | **57,7%** | 3,8% | 30,8% | 7,7% | 19,2% | 11,5% | 15,4% |

| | | 7. Yoxlama prosesi zamanı şəffaflıq səviyyəsini necə qiymətləndirirsiniz? | | | | |
|---|---|---|---|---|---|---|
| | | Çox yüksək | Qənaətbəxş | Orta | Aşağı | Yoxlama prosesi olmayıb |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 6,9% | 16,7% | 8,3% | 2,8% | **65,3%** |
| | 11-50 (Kiçik) | 23,1% | **69,2%** | 7,7% | 0,0% | 0,0% |
| | 51-250 (Orta) | 0,0% | **73,1%** | 19,2% | 0,0% | 7,7% |

| | | 8. Yoxlamalar zamanı məmur davranışını necə qiymətləndirirsiniz? | | |
|---|---|---|---|---|
| | | Peşəkar və ədalətli | Qismən obyektiv | Neytral |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 16,7% | 26,4% | **56,9%** |
| | 11-50 (Kiçik) | **50,0%** | **50,0%** | 0,0% |
| | 51-250 (Orta) | 11,5% | **61,5%** | 26,9% |

| | | 9. Yoxlamaların tezliyini necə qiymətləndirirsiniz? | | | |
|---|---|---|---|---|---|
| | | Tez-tez | Normal | Az | Ümumiyyətlə yoxlama olmayıb |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 2,8% | **29,2%** | 0,0% | 68,1% |
| | 11-50 (Kiçik) | 0,0% | **96,2%** | 0,0% | 3,8% |
| | 51-250 (Orta) | 3,8% | **88,5%** | 3,8% | 3,8% |

## 10. Yoxlamalarla bağlı əsas problem nədir?

| | | Uzun prosedurlar | Əlavə sənədləşmə tələbləri | Qeyri-şəffaf qərarlar | Müxtəlif qurumlar arasında koordinasiyanın olmaması | Digər |
|---|---|---|---|---|---|---|
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | **66,7%** | 36,1% | 4,2% | 2,8% | 25,0% |
| | 11-50 (Kiçik) | 30,8% | **65,4%** | 0,0% | 15,4% | 15,4% |
| | 51-250 (Orta) | 53,8% | **73,1%** | 19,2% | 15,4% | 0,0% |

| | | 11. Yoxlamalar nəticəsində biznesinizə əlavə maliyyə yükü düşüb? | | |
|---|---|---|---|---|
| | | Bəli | Qismən | Xeyr |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 4,2% | 33,3% | **62,5%** |
| | 11-50 (Kiçik) | 0,0% | **92,3%** | 7,7% |
| | 51-250 (Orta) | 3,8% | **96,2%** | 0,0% |

## 12. Yoxlamalar biznesinizə mane olurmu?

| | | Bəli, ciddi maneədir | Qismən təsir edir | Əhəmiyyətli təsir etmir |
|---|---|---|---|---|
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 2,8% | 15,3% | **81,9%** |
| | 11-50 (Kiçik) | 0,0% | 3,8% | **96,2%** |
| | 51-250 (Orta) | 0,0% | **65,4%** | 34,6% |

| | | 15. Kommunal xidmətlərin qiymətləri nə dərəcədə əlverişlidir? | |
|---|---|---|---|
| | | Qismən əlverişli | Əlverişsiz |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | **83,3%** | 16,7% |
| | 11-50 (Kiçik) | **96,2%** | 3,8% |
| | 51-250 (Orta) | **88,5%** | 11,5% |

| | | 18. Müştəri xidmətlərinin səviyyəsi: | | |
|---|---|---|---|---|
| | | Yüksək səviyyədə | Qənaətbəxş | Zəif |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 5,6% | **81,9%** | 12,5% |
| | 11-50 (Kiçik) | 11,5% | **88,5%** | 0,0% |
| | 51-250 (Orta) | 0,0% | **96,2%** | 3,8% |

| | | 19. Vergi siyasətinin ədalətliliyini necə qiymətləndirirsiniz? | | |
|---|---|---|---|---|
| | | Ədalətli və şəffaf | Qismən ədalətli | Qeyri-bərabər |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 33,3% | **63,9%** | 2,8% |
| | 11-50 (Kiçik) | **92,3%** | 7,7% | 0,0% |
| | 51-250 (Orta) | 7,7% | **88,5%** | 3,8% |

| | | 20. Bank və maliyyə resurslarına çıxış imkanlarınız: | | |
|---|---|---|---|---|
| | | Çətin | Yetərli | Qismən asan |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 2,8% | **86,1%** | 11,1% |
| | 11-50 (Kiçik) | 0,0% | **92,3%** | 7,7% |
| | 51-250 (Orta) | 0,0% | 34,6% | **65,4%** |

| | | 21. Dövlətin KOB-lara dəstək proqramlarından xəbərdarsınızmı? | | |
|---|---|---|---|---|
| | | Bəli, istifadə edirəm | Bəli, amma istifadə etmirəm | Xeyr, məlumatım yoxdur |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 0,0% | **54,2%** | 45,8% |
| | 11-50 (Kiçik) | 11,5% | **80,8%** | 7,7% |
| | 51-250 (Orta) | 0,0% | **92,3%** | 7,7% |

| | | 24. Rəqəmsal xidmətlər (e-taxes, e-gov, onlayn icazə sistemləri və s.) səviyyəsindən nə dərəcədə məmnunsunuz? | |
|---|---|---|---|
| | | Çox məmnunam | Qismən məmnunam |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 22,2% | **77,8%** |
| | 11-50 (Kiçik) | **73,1%** | 26,9% |
| | 51-250 (Orta) | 34,6% | **65,4%** |

| | | 25. Rəqəmsal platformalarla işləməkdə əsas çətinlikləriniz nələrdir? | | | |
|---|---|---|---|---|---|
| | | Texniki bilik çatışmazlığı | İnternet keyfiyyəti | Sistem xətaları | Uyğun proqramların olmaması |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 31,9% | 94,4% | **98,6%** | 4,2% |
| | 11-50 (Kiçik) | 42,3% | 96,2% | **100,0%** | 0,0% |
| | 51-250 (Orta) | 26,9% | 61,5% | **80,8%** | 15,4% |

| | | 26. Sizcə biznes mühitinin yaxşılaşdırılması üçün əsas prioritet istiqamətlər hansılardır? | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Vergi və gömrük islahatları | İnzibati prosedurların sadələşdirilməsi | KOB-lar üçün maliyyə dəstəyinin artırılması | Hüquqi müdafiə mexanizmlərinin gücləndirilməsi | Rəqəmsallaşmanın inkişafı və təşviqi | Regionlarda biznes mühitinin inkişafı |
| Müəssisənizdə neçə nəfər işçi çalışır? | 1-10 (mikro) | 54,2% | 51,4% | 54,2% | 5,6% | **88,9%** | 36,1% |
| | 11-50 (Kiçik) | 30,8% | 26,9% | 57,7% | 3,8% | **80,8%** | 76,9% |
| | 51-250 (Orta) | 38,5% | **73,1%** | 46,2% | 34,6% | 65,4% | 50,0% |

04

# Təhlillərə Uyğun Müvafiq Təkliflər

# KOB Subyektlərinin Biznes Mühitindən Məmnunluq Səviyyəsinin Ölçülməsi

Təklif

1

Sorğu nəticələrinə əsasən KOB-lar üçün diferensiallaşdırılmış dəstək mexanizmləri yaradılmalıdır. Bunlar mikro və kiçik sahibkarlıq subyektləri üçün sadələşdirilmiş vergi və hesabatlar, mikro-qrantlar, təlimlər şəklində orta sahibkarlıq subyektləri üçün isə ixrac və investisiya yönümlü ixtisaslaşmış proqramlar hazırlanmalıdır.



# KOB Subyektlərinin Biznes Mühitindən Məmnunluq Səviyyəsinin Ölçülməsi

Təklif

2

KOB-lar üçün biznes mühiti ilə bağlı şəffaflıq, məlumatlılıq və kommunikasiya gücləndirilməlidir. KOB-lara yönəlik rüblük hesabatları, islahat nəticələrini əhatə edən “Biznes Mühiti Məlumat Paneli”nin hazırlanması məqsədəuyğundur.





# KOB Subyektlərinin Biznes Mühitindən Məmnunluq Səviyyəsinin Ölçülməsi

Təklif

3

KOB-lar üçün gücləndirilmiş maliyyə çıxışı proqramlarının hazırlanması labüddür. Bura mikro kreditlər, qrant və kiçik investisiya paketləri daxil edilməlidir.



# KOB Subyektlərinin Biznes Mühitindən Məmnunluq Səviyyəsinin Ölçülməsi




Təklif

**4**

İnfrastruktur və vergi yükünün azldılmasına yönəlik sistemli islahat paketinin hazırlanması məqsədəuyğundur. Burada vergi inzibatçılığı və hesabat prosedurlarının sadələşdirilməsi, sənaye zolaqlarına çıxış, logistika kimi infrastruktur dəstəyi proqramları hazırlanmalıdır.

# KOB Subyektlərinin Biznes Mühitindən Məmnunluq Səviyyəsinin Ölçülməsi

Təklif

5

Dövlət qurumları ilə münasibətlərin optimallaşdırılması və xidmət keyfiyyətinin artırılması məqsədəuyğundur. Burada KOB xidmətləri üçün “tez cavab mexanizmi”, Dövlət-KOB dialoq platformalarının gücləndirilməsi (rüblük göstərişlər, sahəvi dinləmələr), KOB-lar üçün operativlik və cavab müddətinin normalaşdırılmasını əhatə edən “KOB-lar üçün Dövlət Xidmətləri Standartları” formalaşdırıla bilər.



# KOB Subyektlərinin Biznes Mühitindən Məmnunluq Səviyyəsinin Ölçülməsi

Təklif

6

KOB-larda şəffaflıq hissinin zəif olması səbəbiylə yoxlamaların tam rəqəmsallaşdırılması və vahid “Yoxlamaların Reyestri” tətbiq edilə bilər. Yoxlama nəticələri avtomatik olaraq KOB-un şəxsi kabinetində görünməlidir. Yoxlama müddəti, səbəbi, nəticəsi və yoxlamanı aparan məmurun adı sistemdə əks olunmalıdır.



# KOB Subyektlərinin Biznes Mühitindən Məmnunluq Səviyyəsinin Ölçülməsi

Təklif

7

Neytral cavabların azaldılması, peşəkar və ədalətli göstəricisinin yüksəlməsi üçün məmur davranışlarını nizamlayan vahid etik kodeksin hazırlanması və KOB Xidməti Standartlarının tətbiqi məqsədəuyğundur. Məmurlar üçün davranış və ünsiyyət üzrə təlimlər təşkil edilməlidir.



# KOB Subyektlərinin Biznes Mühitindən Məmnunluq Səviyyəsinin Ölçülməsi

Təklif

8

KOB-ların narahatlılığının azaldılması, məmur davranışlarında neytrallığın ortadan qaldırılması üçün "Riskə əsaslanan yoxlama modeli"nin tətbiq edilməsi məqsədəuyğun olardı.



# KOB Subyektlərinin Biznes Mühitindən Məmnunluq Səviyyəsinin Ölçülməsi

**Təklif 9**

Bütün yoxlamalar üçün vahid rəqəmsal portal yaradılmalı, yoxlamanın məqsədi, tələb edilən sənədlər və müddət əvvəlcədən elektron şəkildə bildirilən standart proses olmalıdır.

**Təklif 10**

Yoxlama müddəti qanunvericiliklə maksimum müddət limiti ilə məhdudlaşdırılmalıdır.

**Təklif 11**

Sənədləşmə tələbləri minimum paket prinsipi ilə standartlaşdırılmalı, artıq tələb edilən sənədlər ləğv edilməlidir.

**Təklif 12**

KOB-lar üçün “düzgün sahibkar” statusu tətbiq edilsin. Vergi və inzibati öhdəlikləri pozmayanlara daha az yoxlama tətbiq edilməlidir.

# KOB Subyektlərinin Biznes Mühitindən Məmnunluq Səviyyəsinin Ölçülməsi

Təklif

13

Vergi əməkdaşları üçün vahid kommunikasiya və izah standartı tətbiq olunmalıdır ki, sahibkarlara verilən məlumatlar bütün ölkə üzrə eyni və qeyri-ziddiyyətli olsun.

Təklif

14

Vergi əməkdaşlarının fəaliyyətinin qiymətləndirilməsi üçün sahibkar məmnuniyyəti sorğuları rəsmi mexanizmə çevrilməli; nəticələr üzrə motivasiya/yenidən təlim tətbiq olunmalıdır.

# KOB Subyektlərinin Biznes Mühitindən Məmnunluq Səviyyəsinin Ölçülməsi

Təklif

15

Banklarda KOB-lar üçün az sənəd və qısa müddətlə “sadələşdirilmiş kredit qiymətləndirmə paketi” tətbiq olunmalıdır.



Təklif

16

KOB-lar üçün faktoring, lizinq, kütləvi maliyyələşmə (crowdfunding) kimi alternativ mexanizmlər dövlət dəstəyi ilə genişləndirilə bilər.



# KOB Subyektlərinin Biznes Mühitindən Məmnunluq Səviyyəsinin Ölçülməsi

17 **Təklif**

Dövlətin KOB-lara olan dəstək proqramlar materialları sadə dildə hazırlanmalıdır.

18 **Təklif**

Yerli səviyyədə seminarlar, vebinarlar, “KOB-a dəstək günləri”nin təşkili məqsədəuyğun olardı.

19 **Təklif**

KOB-ların ehtiyaclarına uyğunlaşdırılmış yeni dəstək paketlərinin hazırlanması və proqramların effektivliyinə dair mütəmadi monitorinq və KOB-ların rəyinə əsaslanan yenilənmə sistemi təşkil edilməlidir.

# KOB Subyektlərinin Biznes Mühitindən Məmnunluq Səviyyəsinin Ölçülməsi

### Təklif 20

Rəqəmsal KOB platformalarının 24/7 texniki monitorinq və proaktiv təmir sistemi qurulmalıdır.

### Təklif 21

KOB-ların yerləşdiyi regionlarda sabit və sürətli internet təminatı olmalıdır.

### Təklif 22

Mikro, kiçik və orta sahibkarlar üçün platforma istifadəsi, e-hesabatlar, ödəniş və müraciət prosesləri üzrə modullu onlayn təlim və vebinarlar təşkil edilməlidir.

# KOB Subyektlərinin Biznes Mühitindən Məmnunluq Səviyyəsinin Ölçülməsi

Təklif 23

Hər üç KOB subyektləri üçün prioritet sahələr yuxarıda qeyd edilən 22 təkliflə bərabər qiymətləndirilərək KOB-lara maliyyə dəstəyi artırılmalı və inzibati prosedurlar sadələşdirilməlidir.





# Təşəkkürlər